| Xəstəlik sinifi (XBT-10) | AB – Bəzi infeksion və parazitar xəstəliklər |
|---|---|

| İlkin versiyanın tərtibatçı (İSİM) | Kazımova Z. |
|---|---|

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| **B60.0** | Babezioz<br>Piroplazmoz |
| **B60.1** | Akantamöbioz<br>*Acanthamoeba* tərəfindən törədilən konyuktivit† (H13.1*)<br>*Acanthamoeba* tərəfindən törədilən keratokonyuktivit† (H19.2*) |
| **B60.8** | Digər dəqiqləşdirilmiş protozoy xəstəlikləri<br>Mikrosporidoz |

## Müalicə

**Müalicə:**

**Babezioz**

İnsanlarda babeziozun ağır formaları üçün ***Klindamisin (Clindamycin) və Xinin (Quinine)*** və ya ***Azitromisin (Azithromycin)*** *və* ***Atovaquonun*** birləşmələri tövsiyə olunur. Ağır hallarda qan köçürmək lazımdır.

**Akantamöbioz** keratitinin müalicəsi kontakt linzaların taxılmamasını tələb edir. Yerli terapiya konyunktiva boşluğuna antibakterial dərmanların ***(Gentamisin (Gentamicin), Neomisin (Neomycin), Polimiksin B (Polymyxin B)*** və s.) və kortikosteroidlərin hər saat damcılanmasından daxildir; göbələk əleyhinə dərmanların istifadəsi ***(Amfoterisin B (Amphotericin B), Ketokonazol (Ketoconazole))***. Göz damcıları ilə birlikdə, göz qapağının arxasında eyni məhsulların məlhəm aplikasiyaları istifadə olunur. Buynuz qişada proqressiv dəyişiklər olarsa keratoplastikaya göstəriş olacaq.

Dərinin akantamöbiozı üçün aminoqlikozid qrupundan olan dərmanlarla sistemli antibiotik terapiyası, ***Neomisin, Polimiksin*** və s. ilə məlhəmlərin yerli tətbiqi aparılır.
Ən çətin məsələ akantamöbioz ensefalitin müalicəsidir. Akantamöbiozun bu klinik forması üçün ***Amfoterisin B-nin*** v/d yeridilməsi, ***Trimetoprim (Trimethoprim) və Sulfametoksazol (Sulfamethoxazole))***və Aminoqlikozidlərin kombinasiyalı təyin göstərilir. Mərkəzi sinir sisteminin akantamöbiozının müalicəsi yalnız tək-tək hallarda təsirli olur.

Hər hansı bir infeksiya formasının təsdiqi *Benzimidazollar* və ya *Dikarboksilik turşular* qrupundan sistemli dərmanların təyin edilməsi üçün əsasdır. İİV-ə yoluxmuş insanlar mikrosporidiozun müalicəsinin bir hissəsi kimi *Antiretrovirus terapiya (ART)* almalıdırlar.

## Ədəbiyyat

https://www.krasotaimedicina.ru/

https://www.krasotaimedicina.ru/diseases/infectious/microsporidiosis

https://ru.wikipedia.org/wiki/%D0%91%D0%B0%D0%B1%D0%B5%D0%B7%D0%B8%D0%BE%D0%B7%D1%8B